ÇİNGİZ
ABDULLAYEV

# AXMAQLAR ÜÇÜN ALTERNATİV

Tərcüməçi:
Aygün Çırpanlı

qanun nəşriyyatı

# ЧИНГИЗ АБДУЛЛАЕВ

## АЛЬТЕРНАТИВА ДЛЯ ДУРАКОВ

O, “seyf oğrularının” ən yaxşısıdır. İstənilən seyfi aça bilən və içindəkiləri götürə bilən adam. İndi isə?.. İndi isə naməlum müştərilər onu həbsdən çıxarıb qəribə bir “iş” tapşırıblar. Ölkədə ən çox qorunan seyfi açmaq – içərisinə bir şey qoymaq üçün. Nəyi? Bunu icraçı bilməli deyil. Qəribə işdir. O, həqiqətən, cinayətə cəlb olunduğunu anlayır və hərəkət etməyə başlayır. Onu bu işə cəlb edənlərin nəzərdə tutduğundan tamamilə fərqli hərəkət...

**Чингиз Абдуллаев  АЛЬТЕРНАТИВА ДЛЯ ДУРАКОВ**
**Çingiz Abdullayev  AXMAQLAR ÜÇÜN ALTERNATİV**
Bakı, Qanun nəşriyyatı, 2024, 200 səh.

Janr: bədii ədəbiyyat, detektiv
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 27.08.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Aygün Çırpanlı |
| Redaktor: | Gülüstan Bağırova |
| Korrektorlar: | Zeynəb Solmaz, Aytən Səadəti |
| Texniki redaktor: | Əsəd Qaraqaplan |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-577-23-5

© Qanun Nəşriyyatı, 2024
© Çingiz Abdullayev, 2024

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu»na ziddir.

Əgər sikkənin hər iki tərəfi ön üzdürsə, arxa üzü heç vaxt düşməyəcək. Bunu milis polkovniki Tarasovla gərgin təkbətək mübahisəyə girən peşəkar seyf oğrusu Bəxtəvər çox gözəl başa düşürdü. Özünümüdafiə instinktindən başqa hər bir kəsi rəqibdən üstün olmaq meyili idarə edir. Hiyləgər və təhlükəli oyunun lap sonunda qalibin kim olduğu bəlli olur.

– Həyat belədir, – Burlakov çiynini çəkdi, – bu dialektikadır. Həmişə kimsə yeyilir. Əgər yırtıcılar varsa, deməli, qurban da olmalıdır.

– Cəngəllik qanunu, – Qoroxov gülümsədi, – güclülər sağ qalır.

– Siz bu gün melanxolik notlara köklənmisiniz. Gedək maşına. Hava soyuyur.

– Bizim hökumət bu uşaqları mükafatlandıra bilərdi. Heç olmasa, ölümündən sonra, – Qoroxov sakitcə bildirdi.

– Nə üçün? Mükafat verməklə necə həvəsləndirmək olar? Bizim onların rəşadətindən xəbərimizin olması kifayətdir. Ailələri isə yaxşı məbləğdə müavinət alacaq.

– Nə arsız adamsınız!

– Sentimentallıq indi dəbdə deyil. Biz qalib gəlmişik və sağ qalmışıq. Gerisi altruizmdir, əxlaq dərsi keçməkdir.

Biz cinayətə alternativ idik. Və qalib gəldik. Çünki doğru iş üçün mübarizə aparırdıq.

– Yox – Qoroxov əminliklə dedi, – cinayətin alternativi şeytana xidmət etməkdir, polkovnik. Günahkar Tanrıya inanır. Günah edir, amma inanır. Buna görə də o, Tanrı ilədir. Amma biz isə... Siz Tanrıya inanırsınız? Elə mən də. Buna görə də biz Tanrı ilə deyilik. Bəs onda kiminləyik? – əlindəki zərfi xırda hissələrə parçalayan Qoroxov onları çaya töküb axsaq addımlarla maşına tərəf getdi.

– Gözləyin, – Burlakov çaşqın halda qışqırdı. – Bəs nəyə görə Tanrı belə bir alternativə göz yumur?

Qoroxov başını çevirib bir qədər fikrə getdi:

– Bəlkə, ona görə ki, o, insanlara seçim hüququ verir, – deyib yoluna davam etdi.

## Giriş

– Çıxışa, – bərkdən səs gəldi. O, yavaşca dikəldi. Kamera yoldaşları sakitcə onun arxasınca baxırdı.

Uzun dəhliz, həbsxana qapılarının cırıltısı, növbəti dəhliz. Həbsxana gözətçilərinin adi qışqırıqları. Müşayiətçilərin adi nidaları. Daha bir dəhliz. Daha bir qapı.

– Dayan! Əllər arxaya, – daha bir xatırlatma səsləndi.

Onlar otağa girdilər. Masa arxasında oturan iki zabit qaşqabaqla içəri girəni süzdü. Müşayiətçi arxasında ağır-ağır nəfəs alırdı. Zabitlər adət etdikləri məruzəni gözləyirdilər. Amma o, inadla susurdu. Nəhayət, onlardan biri dilləndi:

– Niyə susursan, Bəxtəvər? Dilini yemisən?

– Sizin nə deyəcəyinizi gözləyirəm, – o, arsız təbəssümlə zabitlərin gözünə baxdı.

Zabitlər bir-birinə baxdı. – Azad, – onlardan biri müşayiətçiyə dedi.

O, sakitcə otaqdan çıxdı. Masa arxasında oturanlardan biri polkovnik, digəri isə polkovnik-leytenant formasında idi. Müşayiətçini otaqdan göndərən polkovnik başını bulayıb müavininə dedi:

– O axı hər şeyi əvvəldən bilir. Onların “poçtu” bizimkindən yaxşı işləyir.

– Bəsdir, rəis, – məhkum bığaltı qımışdı, – hətta bilməsəydim də, çoxdan təxmin edərdim. Mənim kağızım sizə gəlib. Doğrudur?

– Doğrudur, Bəxtəvər, hamısı doğrudur. Dostların sənin müddətini qısaldıblar. Sənin azadlığınla bağlı kağız gəlib. 10 il əvəzinə müddətini 4 ilə qədər azaldıblar. Təkrar məhkumluğunu nəzərə alaraq səni bu gün buraxmaq məcburiyyətindəyik. Hər hansı sualın varmı?

Məhkumun xoşagələn xarici görkəmi vardı: saçı qısa vurulmuşdu, hökmlü çənəsi, bir qədər gərilmiş almacıq sümükləri, azca donqar burun və mavi gözlər. O, gözəl dişlərini nümayiş etdirərək bir daha gülümsədi və “yox” mənasında başını buladı.

– Bizdən hər hansı şikayətin, iradın və ya xahişin varmı? – polkovnikin səsi xırıldadı.

– Yox. Bura əsl kurort idi.

– Kurort, – polkovnik-leytenant onun sözünü təkrarlayarkən qızarmışdı, – yenə əlimizə düşsən, kurortun necəliyini sənə göstərəcəyəm.

– Çətin, polkovnik-leytenant, – məhkum güldü. – Bizi iki dəfə ard-arda eyni koloniyaya göndərməzlər. Qorxurlar ki, sizin sürünüzü yoldan çıxararıq. Sən ki qaydaları bilirsən!

– Rədd ol! – polkovnik leytenant qəzəbləndi.

Məhkum çıxmaq üçün çevriləndə polkovnik onu saxladı.

– Sənəd və əşyalarını Voronovdan alacaqsan. Hara getmək lazım olduğunu bilirsən. Küçədə dostların səni gözləyir. İki maşında gəliblər. Sənin keçmiş ortağın Köstəbək özü təşrif gətirib.

– Bu o qədər də xoş xəbər olmadı, – məhkum gülümsədi.

– Get... – həbsxana rəisi pis söyüş söyüb, daha bir neçə seçmə ifadə işlədərək birdən gözlənilməz qəzəblə dedi:

– Təəssüf ki, səni belə tez buraxdılar. Amma eybi yox. Rusiya böyükdür. Bəlkə, yenə üz-üzə gələrik.

Məhkum artıq çıxmaq üçün izin istəmədən qapını təpiklə vurub kabinetdən çıxdı. Zabitlər bir-birinə baxdılar.

– Və belə əclafları azadlığa buraxırlar, – polkovnik-leytenant qəzəblə fısıldadı. – Onlar nə haqda düşünür? Heç nə başa düşmürlər. O ki ən adi quldurdur. Həmişə bəxti gətirir. Keçən dəfə heç nə sübut edə bilmədilər. Ona görə on il iş verdilər. Ümumiyyətlə isə o, çoxdan ölüm hökmünə layiq görülməli idi. Dəfələrlə silahlı qarət planlayıb. Üçündə özü iştirak edib. Sonuncuda iki zabit öldürülüb. Bunun isə işə heç bir dəxli yoxmuş.

– Ləqəbi boşuna Bəxtəvər deyil ki, – polkovnik xoşagəlməz tərzdə gülümsədi, – o, həmişə sudan quru çıxır. – Elə bilirsən, keçən ay bizim gizli əməkdaşı kimin doğradığını bilmirəm? Bu onun işi idi. O, bizim agentləri bir verstdən hiss edir. Heç nə sübut edə bilmədik. Amma dəqiq bilirəm ki, kişini bunun verdiyi ipucu ilə öldürdülər.

– Görəsən, Moskvada nə cür düşünürlər? – polkovnik-leytenant yenə təkrarladı, – bu cür quldurları vaxtın-